Ülkər Söhbət qızı Piriyeva 24 avqust 1988-ci ildə Masallı rayonunun Ağakişibəyli kəndində anadan olmuşdur. "Qəhrəman İsmayılov" adına Şərəfə kənd orta məktəbində 5-ci sinifədək təhsil aldıqdan sonra təhsilini Masallı rayonunun Dəfinə liseyində davam etdirmiş və 2004-cü ildə oranı qırmızı attestatla bitirmiş, elə həmin ildə Azərbaycan Universitetinin Xarici dillər fakültəsinə daxil olmuş və universiteti də qırmızı diplomla başa vurmuşdur. İngilis dili üzrə Filologdur. Bir qız övladı var, ailəsi 6 nəfərdən ibarətdir. Dünya Gənc Türk Yazarlar birliyinin və Nəzarət Təftiş Komissiyasının üzvü, Gündəlik İnformasiya Agentliyinin, eyni zamanda Mədəniyyət və Ədəbiyyat portalının redaktorudur. Həmçinin Bakı Slavyan Universitetini bitirmişdir. Yaradıcılıq fakültəsinin Azərbaycan Yazıçılar Birliyində fəaliyyət göstərən "Gənc Ədiblər" məktəbinin məzunudur. 2015-ci ildə "Zamana Baxış" adlı şeirlər toplusu CD albomu işıq üzü görmüşdür. Şeirləri, esseləri, tərcümələri və publisistik məqalələri Azərbaycan, Türkiyə, Qırğızıstan və İran mətbuatında, almanaxlarda və "Yeni Tatar Şeiri", "Səs, Söz, Rəng" və "Avrasiya Şairləri" antologiyalarında dərc olunmuşdur. Menecer və dj olaraq çalışmış, "Pöhrə", "Tələbə Baharı", "Qarabağ Harayı", Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş müsabiqədə şeir yazmaq və bədii qiraət üzrə 1-ci dərəcəli diploma, 2014, 2015, 2016-ci illərdə DGTYB-nin "Onur Belgesi"nə, 2015-ci ildə Qafqaz Media İctimai Birliyinin "Heydər Zirvəsi" adlı mükafatlarına layiq görülmüşdür. "The 1_st Annual International XXI Century Teacher's" sertifikatlıdır. Xəzər televiziyasında yayımlanan 5/5 verilişinin "Mən Şairəm" adlı müsabiqəsinin finalçılarından biridir. Bədii qiraətçi və gənc yazardır. Hal-hazırda ingilis dili müəlliməsi, həmçinin CASCFEN-də icraçı direktor, Vision TV-də jurnalist olaraq fəaliyyət göstərir.

«Fikir qayıqları» müəllifin ilk kitabı, kitabın CD albomu isə onun ikinci albomudur.

FİKİR QAYIQLARI

ÜLKƏR PİRİYEVA

ÜLKƏR PİRİYEVA

FİKİR QAYIQLARI

«Vektor» Beynəlxalq Nəşrlər Evi
Bakı/Azərbaycan-2017

Ülkər PİRİYEVA

Məsləhətçi:
Vahid Əziz

Redaktor:
Prof. Dr. Elçin İsgəndərzadə

Texniki redaktor:
Şükufə Əhmədli

Ülkər Piriyeva "Fikir qayıqları"
«Vektor» Beynəlxalq Nəşrlər Evi.
Bakı, 2017. 116 səh.

© «VEKTOR» BEYNƏLXALQ ELMLƏR AKADEMİYASI, 2017

Xatirələr

Hər gün bir xatirəm gözdən silinir,
Bunları eşitmək ağırdısəndən.
Bizim yollarımız ayrı düşəndən,
Qurtula bilmirəm dumandan, çaəndən.

Canımı ağrısı zülm edir mənə,
Bir bilsən nə qədər bağlıyam sənə.
Gözündən düşsəm də, hər an, hər gecə,
Həyatın ən şirin nağılıyam sənə.

Gözüm tor tutubdur göz yaşlarından,
Eləcə, arxanca darıxıb gedir.
Nədir çəkdiklərim sevgi yolundan,
Həyat göz ardında buraxıb gedir.

Ürəyim ağrılar məzarlığıdı,
Dəfn etmə özünü, tez ayıl insan.
Bəlkə, bu sevgivin dayazlığıdı,
Ayıl, ayıl gəl beləcə, çıx tabutundan.

Deyirsən, cəld tərpən, gör səhvlərini,
Gör mənim yolumda nə yaratmısan.
Xoş bir gələcəkdən bəhs edən məni,
Gözünün yaşı tək silib atmısan.

Yığıb bir araya ğyri-düzləri,
Bir ortaq mərama gələ bilmirəm.
Səninçün yığdığım xatirələri,
Hələ, sənin kimi silə bilmirəm.

Sağ əldən sənliyə çatdığım ömrü,
Bir göz qırpımında silə bilməzsən.
Sənli gələcəyə qatdığım ömrü,
Buz tək əridiyin bilə, bilməzsən.

Hər gün bir şirinim əriyir gözdə,
Bir görsən, tökülüb nə düşür gözdən.
Səni mənə "Nur"la bağlayan izlər,
Məni parçalayıb sürüşür gözdən.

Bu aprel ayında

Coşub damarında qanı qaynadı,
Bu yurdda dənizin hələ, çayında.
Bir tarix yazıldı sinənə vətən,
Bu aprel ayında, aprel ayında.

İgidlər sarılıb topa-gülləyə.,
Qoymadı xalqımız qəddini əyə.
Al bayraq sancıldı Lələtəpəyə,
Bu aprel ayında, bu aprel ayinda.

Hər kəs bir şüarda, hər kəs bir səsdə.
Çiçəklər bağlandı hey dəstə-dəstə.
Şəhidlər doğuldu zirvələr üstdə,
Bu aprel ayında, aprel ayında.

Ana yurd vicdandı, ruhdu, ürəkdi,
Bir cüt gözümüzdə torpaq bəbəkdi.
Türk oğlu vətəni göylərə çəkdi,
Bu aprel ayında, aprel ayında.

Qarabağ torpağa, daşa qayıdar-
Kəlbəcər, Zəngilan, Şuşa qayıdar...
Qayıdar, nə varsa, qoşa qayıdar,
Bu aprel ayında, aprel ayında…

Həyat

Ağacdan, insandan, daşdan, qayadan,
Hamıdan, hər şeydən keçirsən həyat.
Beləmi tapşırıb Ulu Yaradan,
Canı şərab kimi içirsən,həyat!

Dərdimi bölüşdüm dənizlə, çayla,
Hönkürə-hönkürə səslə, harayla.
Məqamla, fəsillə, saatla, ayla,
Hər kəsin vaxtını ölçürsən, həyat!

Sənlə gah küsər, gah barışarıq,
Sənli fikirlərim qatmaqarışıq.
Hər kəsin qəlbində bir cürə işıq,
Boyadan-boyaya köçürsən həyat!

Hərarət duyulmaz qəmli çıraqdan,
Sevgim kül bağlayıb qaçır ocaqdan.
Gah gözdən salırsan, gah ucalıqdan,
Əzirsən, döyürsən, biçirsən həyat!

Hər ömrün öz yası, toyu, büsatı,
Dağılan lələyi, sınmış qanadı.
Mən haqqı gəzirdim dərd qabaqladı,
Kaş, erkən biləydim, nə cürsən həyat!..

Allahım sən alma bu gözəlliyi

Düşüb yer üzünə Tanrıdan gəlir,
Torpaq gözəlliyi, su gözəlliyi.
Hələ qoy yaşayaq günlər içində
Allahım sən alma bu gözəlliyi..

Bir üzü qaranlıq bir üzü işıq ,
Elə başdan-başa dünya yaraşıq.
Hələ gözəllikdən heç doymamışıq,
Allahım sən alma bu gözəlliyi..

Haqq ilə nahaqqı ayırır insan,
Ruhunu söz ilə doyurur insan..
Qəlbini içindən sıyırır insan,
Allahım sən alma bu gözəlliyi..

Hər xeyir tapılar bir itən şərdə,
Nə deyim sonumda gizlənən dərdə..
Gözəllik eşqiylə gəzir bəşər də,
Allahım sən alma bu gözəlliyi..

Oyan millətim, oyan

Dünya artıq bilsinki, sərhədlər çəkiləcək,
Bu Ədalətsizlik bizdə birgə həll ediləcək,
Qarabağda Xocalım qürurla öyünəcək.
Vətən sənə qayitdım, məni qucaqla barı,
Qoy məhv olsun dünyada erməni quldurları.

Ermənin etdiyi öz adınıda aşdı,
Bu faciə deyilki, qətliamdı, savaşdı,
Soy kökümü qıranlar artıq həddini aşdı.
Vəhşətin qisasını silahınla al barı,
Qoy məhv olsun dünyada erməni quldurları.

O günü qanlarıyla, canlarıyla duyanlar,
Öz doğma torpağında dəhşəti yaşayanlar,
Tarixin yaddaşına şəhid tək yazılanlar,
Qoymarıq ruhlarınız narahat qalsın, barı,
Qoy məhv olsun dünyada erməni quldurları.

***

O günü millətimin ahı ərşə dayandı,
Qarabağda Xocalım al qanına boyandı,
Aman Allah bu nədir, bu nə ərşi bəyandı?
Oyan qeyrətim, oyan, qisas üçün məqamdı..

Xocalıdan Ağdama uzanan yol boyunca,
Millətimin namusun alırdılar doyunca,
Əli silahlı ruslar, erməni qəsbkarlar,
Xocalının səsinə qulaq tıxayan karlar.
Nifaq toxumu səpdi Türkün olduğu yerə

Dünya tamaşa etdi bizim faciələrə...

Ayaqlar buz kəsilmiş, yeriyə bilmir insan,
BİR tərəfdə yurd-yuva, irəliləyir düşman.
Ağdaça az qalırlar torpaq cəsəd tarlası,
Gözləri qanla dolu, o gün matəm havası.
Çağırır harayına Xocalım nə zamandı,
Oyan millətim, oyan, qisas üçün məqamdı...

Nələr gördü millətim, nələr çəkmədi başı,
Bacının namusuyçun silah çəkdi qardaşı,
Toy-büsat gözləyirdi neçə üzüyün qaşı,
Çaqqallar yandırdılar yüzlərlə vətəndaşı.
Oyan millətim, oyan, daha bəsdir göz yaşın,
Haydi, əsgər irəli, çalınsın Vətən Marşın,
Yetər daha ağlamaq, başla qeyrət savaşın !...

Ürəyimə yağış yağır bu gecə

Gözlərindən baxışların tökülür,
Od nəfəsim sənlə dara çəkilir...
Varlığımda eşq sarayı tikilir,
Bir xəbərsiz eşq yaranır gizlicə,
Ürəyimə yağış yağır bu gecə..

Bəxtim sənə nə göz yaşı ol deyir,
Nə tökülən göylər daşı ol deyir..
Bir ürəyin gəl sirdaşı ol deyir,
Arzularla ötüb gedir gün necə,
Ürəyimə yağış yağır bu gecə..

Baxışınla gözlərimə dolanda,
Ta qayıtma... Sığın onda qal onda...
Adın qəlbdə, taleyinsə alında,
Sənsiz günüm nə yaşana, nə keçə,
Ürəyimə yağış yağır bu gecə..

Öldü əlimizdə, öldü od-ocaq,
Olduq ayrı-ayrı daha yad ocaq.
Sevirdik- neyləyək ölümdən ancaq,
Arzular asıldı, gör, neçə-neçə..
Ürəyimə yağış yağır bu gecə..

Tənhalaşdı ürəyim..

Ayrılığın içində ayrılıq havasında,
Kədərimlə çağladı, coşdu-daşdı ürəyim.
İtirdi sevincini, itirdi kədərini,
Tənhalaşdı beləcə, tənhalaşdıə ürəyim..

Illər üstə çoxaldım, ömür üstə azaldım,
Gözlərimə od-alov, saçlarıma qar aldım.
Sözlər gəldi boğazda düyünləndi, saraldım,
Tənhalaşdı beləcə, tənhalaşdı ürəyim.

Nə bilim günahım nə, yoxuşdu alın yazım,
Mayasın ahdan aldı ürəyimdə avazım.
Bir gün məndən getmədi boran, şaxta, ayazım,
Tənhalaşdı beləcə tənhalaşdı ürəyim.

Həsrət qaldım könüldə günə damın içində,
Xatirəyə hey dönür gün adamın içində.
Yüz adamın içində, min adamın içində,
Tənhalaşdı beləcə, tənhalaşdı ürəyim.

Adın bircə qalacaq xatirə dəftərimdə,
Bitməyəcək bircə yol heç vaxt dərdi, sərimdə.
Bəlkə də, heç halımdan yoxdu heç xəbərində,
Tənhalaşdı beləcə, tənhalaşdı ürəyim..

Tale istəməzsə, əldən nə gələr

Eşqim ölçülməzki, dərya görsən də,
Tale istəməzsə, əldən nə gələr.
Uzaq-yaxın demə qaçıb gəlsən də,
Tale istəməzsə, əldən nə gələr..

Sevirəm sözünü demə, boşuna,
Məhəbbət görməsən gəlməz xoşuna.
Şəkər əvəzinə zəhər qatar aşına,
Tale istəməzsə, əldən nə gələr.

Bəzən uduzarsan vaxt oyununda,
Onun günahını daşı boynunda.
Çarəsiz, əllərin bağlı qoynunda,
Tale istəməzsə, əldən nə gələr.

Səhrada qovrulan Məcnun olsa da,
Eşqindən Leyli də, dönmədi yada.
Sevgisi dillərə düşdü dünyada,

Tale istəməzsə, əldə nə gələr…
Dağlara Fərhad eşqin cızsa da,
Yusif yuxuları xeyrə yozsa da,
Fərhadla Şirin dastan olsa da,
Tale istəməzsə əldən nə gələr..

Vətən

Doludur tarixin şərəflə, şanla,
Yuyuldun bir zaman içilməz qanla.
Döyüşdün qarşını kəsən dumanla
Vətən!

Sınaqdan yol keçdi torpağın, daşın,
Bayrağı ucaltdı hər vətəndaşın.
Süzülsün gözündən sevinc göz yaşın,
Vətən!

Qartal doğulmusan, qartal olmusan,
Məhəbbətlə ürəyimə dolmusan.
Ömür boyu çox xəyala dalmısan,
Vətən!

Bir yandan cəfalı bir ömür sürdün,
Neçə ağrı-acı, faciə gördün.
Dərdin tən ortadan ikiyə böldü,
Vətən!

Muğamın lal edər ötən dilləri,
Sazın haray salar səslər elləri.
Sızalayar könlümün titrək telləri,
Vətən!

Çiçəkli, ətirli dilbər yazımsan,
Dilimdə zümzüməm, xoş avazımsan.
Bəxtimin payısan, alım yazımsan-
Vətən!

Bu vətən kök salıb ürəyimizdə…

Bu vətən torpağın şah damarında,
Qopuzumda, kamanımda, tarımda.
Keçib həyatının şaxta, qarından,
Bu vətən kök salıb ürəyimizdə…

Çox dumanlar oldu, çox çənlər oldu,
Şanlı tarixinə köçənlər oldu.
Yolunda canından keçənlər oldu.
Bu vətən kök salıb ürəyimizdə…

Tarixin dilindən düşməz bu dastan,
Toyuna yetişdi çıxdığı yasdan.
Yaşamaq eşqiylə düşməz həvəsdən
Bu vətən kök salıb ürəyimizdə…

Sınaqlar içində əyilməz durub,
Başını nə dağa, nə daşa vurub.
Özünü çağlayan qana hopdurub
Bu vətən kök salıb ürəyimizdə…

Bir tarix yaradıb silinməz izlə,
Qurtara bilmərəm danışsam sözlə.
Ana təbiətdə çayla, dənizlə-
Bu vətən kök salıb ürəyimizdə…

Alışıb yanar

İllərin başında kədərin tacı,
Dərd məni səslədi hey acı-acı.
İlahi bunların yoxmu əlacı,
Beləcə ürəyim alışıb yanar.

Ağlasam eşitmir, gülsəm eşitməz,
Gözümün yaşını silsəm eşitməz.
Dərdimi onunla bölsəm, eşitməz,
Beləcə ürəyim alışıb yanar.

Gözyaşım sinəmə sel olub axar,
Hərə bir tərəfdən biganə baxar.
Hər yolum sənsizkən kədərə çıxar,
Beləcə ürəyim alışıb yanar.

Taleyim baharsız qışa dönübdü,
Bir sevgi içimdə daşa dönübdü.
Enişlər, yoxuşlar başa dönübdü,
Beləcə ürəyim alışıb yanar.

Sən Məcnun, mən Leyla eşqi gəzərdik,
Sən demə dünyanı eşqlə bəzədik.
Yaşadıq sevgidən axı nə dərdik-
Beləcə ürəyim alışıb-yanar…

Əgər ayrıldıysaq, necə barışaq

Dünya dərdimizdən dayazdı zalım,
Gör Tanrı qismətə nə yazdı zalım,
Ayrılıq gözümdə Arazdı zalım,
Əgər ayrıldıqsaq, necə barışaq.

İçimi göynədən sevgi dağıdı,
Pıçıltım bayatı, nəğməm ağıdı.
Ürəyim arzular məzarlığıdı,
Əgər ayrıldıqsaq, necə barışaq.

Qopdu ömrümüzdən işıqlı dünən,
Daha indən belə kimdi sevinən.
Yolunu tapmıram, yol varsa, denən,
Əgər ayrıldıqsaq, necə barışaq.

Ocağı kül edib köz itirmişik,
Nə qədər şip-şirin söz itirmişik.
Hicran yollarında göz itirmişik,
Əgər ayrıldıqsaq, necə barışaq.

Söndü bəxtimizdə söndü ağ işıq,
Bütün xatirələr qatmarışıq.
Ümidsiz bir yerdə axşamlamışıq,
Əgər ayrıldıqsaq, necə barışaq.

Gözlərin hey dolub, boşalıb bitib,
Ürəyim havalı baş alıb gedib.
Hicran qalib gəlib, vüsal itirib,
Əgər ayrıldıqsaq, necə barışaq.

Bəndə

Gözlərindən həsrət yağır,
Ay yağışa düşən bəndə.
Vaxtsız gəlib yer üzünə,
Təktənha yetişən bəndə.

Götür ürkək baxışları,
Söykə dünyanın dizinə.
Saxla düşən ulduzları,
Yapışdır göyün üzünə.

Bir gün için çıxıb çölə,
Çatacaq göyün üzünə.
Aldadıb ömür də səni,
Atacaq göyün üzünə.

Döndü

Sevincim qərq oldu qəm dəryasında,
Qəlbim şadlığımın qərinə döndü.
Belə düşünürdüm, həm də sevildim,
Əsən səmt küləyi tərsinə döndü.

Gözüm gözlərini görəndən bəri,
Ümid sarayları hörəndən bəri,
O uzaq sevginin xatirələri,
Solan çiçəklərin ətrinə döndü.

Ümid ıraqları sönən aşiqlər,
Sevinci kədərlə bölən aşiqlər.
O qədər ağladı sevən aşiqlər,
Göz yaşı məhəbbət rəmzinə döndü.

Yaz da ötüb keçdi, payız da gəldi,
Bədbaxt da sevindi, yazıq da güldü.
Qurduğum o saray elə söküldü,
Sənin param-parça rəsminə döndü…

Anam

Böyüyüb aylarla, illə boyatdım,
İllərdən- illərə körpülər atdım.
Ana gülüşünə gö yaşı qatdım,
Başımda şimşəklər, gözümdə duman,
Dərdi çəkə-çəkə qocaldı anam..

Neə xəyalları qurdum həyatda,
Arzudan-arzuya köçdüm həyatda,
Vüsalsız ümidlər qırdım həyatda,
Hər yaşam anımda ən şirin məqam,
Məni sevə-sevə qocaldı anam.

Qəlbimin sirdaşı, ömrün bəzəyi,
Bu qərib ruhumun sirli köməyi,
Gözümün nurudu, ruhu, ürəyi,
Qəlbində səksəkə, qorxu, həyəcan,
Məni sevə-sevə qocaldı anam..

Həyatmı günahkar,
bizmi günahkar

Alışıb içimdə hey yanır ömür,
Elə bil başıma fırlanır ömür.
Hələ tikə-tikə doğranır ömür,
Həyatmı günahkar, bizmi günahkar..

Sıxılır can dağa-daşa düşəndə,
Gec olur taleyi başa düşəndə.
Yolumuz bahardan qışa düşəndə,
Həyatmı günahkar, bizmi günahkar.

Qismətin taxt-tacı uçulan zaman,
Arzular can verib köç olan zaman,
Sevgimiz ürəkdə puç olan zaman,
Həyatmı günahkar, bizmi günahkar..

Ömür ya payızdan, ya qışdan keçir,
İslana-islana yağışdan keçir.
Hər addım enişdən, yoxuşdan keçir,
Həyatmı günahkar, bizimi günahkar..

Nə bu gün, nə dünən, nə sabah bilir,
Nə sevinc, nə həsrət, nə də ah bilir.
Bilirsə, bilirsə, bir Allah bilir,
Həyatmı günahkar, bizmi günahkar..

Qocalır Atam

Baharı yaşayıb yetişir qışa,
Şəvə tellərinə qar alır atam.
Elə yaşadığı əzab içində,
Qocalır, İlahim, qocalır atam.

Baxışı çıraqdı, odu çıraqdı,
Qocaman çağında gənclik uzaqdı,
Dəyişə bilmərəm yazdığın baxtı,
Qocalır, İlahim, qocalır atam.

İllər yarpaq-yapaq uçur ömründən,
Şaxtalar, sazaqlar keçir ömründən,
Zaman şığıyaraq köçür ömründən,
Qocalır, İlahim, qocalır atam.

Sənin ömründə qurulan həyat,
İsti baxışında axtarır nicat,
Əlləri gör necə olubdur çat-çat,
Qocalır, İlahim, qocalır atam.

Hələ sabahlara çəkir yaşını,
Görür həyatında bəxt savaşını.
Haqlayır günbəgün ömrün qışını,
Qocalır, İlahim, qocalır atam..

Qürurum mənim

Yağışdan, tufandan keçdi taleyim,
Düşdüm girdabına ağır günlərin,
Palıd aöğacına biraz bənzədim,
Sınandı, sınmadı qürurum mənim.

İllərin əlində ömrüm yel oldu,
Kədər məni məndən alan sel oldu,
Bir günün əzabı dönüb il oldu,
Sınandı, sınmadı qürurum mənim.

Hərcayı danışıb dinmək bilmədim,
Od oldum, boğdular, sönmək bilmədim,
Ədalət yolundan dönmək bilmədim,
Sınandı, sınmadı qürurum mənim.

Ürəyim istisiz ocaq olsa da,
Dərd-qəmə açılan qucaq olsa da,
Xoşbəxtlik bəxtimdən uzaq olsa da –
Sınandı, sınmadı qürurum mənim.

Ömrün yarısı od, yarısı küldü,
Nələr çəkdiyimi bir Tanrı bildi.
Kimi rişxənd etdi, kimisi güldü,
Sınandı, sınmadı qürurum mənim..

Fikrimə gəldin

Günəşin qüruba enəndə, zalım,
Axşam toranıtək yaxına gəldin.
Əlində bir qədəh qəm şərbətiylə,
Yandırıb yaxarkən fikrimə gəldin.

Sakinsən ömrümün bahar çağında,
Gəzərsən beynimin künc-bucağında.
Yanırdın qəlbimin od-ocağında,
Gözümü sıxarkən fikrimə gəldin.

Adını əkəndə əsir dodağım,
Təzədən gül açır qolum, budağım.
Sevgi çeşməmizi bulandırmağın,
Bulanıq axarkən fikrimə gəldin.

Qışdan uzaq düşüb axtardığım yaz,
Yaranıb dilimdə bir özgə avaz.

Gözümdə eləcə böyümüş Araz,
Kükrəyib axarkən fikrimə gəldin.

Bu dünya atəşin, odun unudub,
Gözəllik məhv edib, qadın unudub!
Birisi birinin adın unudub-
Evini yıxarkən fikrimə gəldin..

Bəlkə tapam

Heç bilmirəm, necə sənə qayıdım,
Gedə-gedə, dönə-dönə gəzirəm,
Unutduğun hansı günü oyadım?
İtirmişəm, səndə səni gəzirəm.

Əllər enib dizlərimə, hardasan?
Kədər çöküb gözlərimə, hardasan?
Yuxu gəlmir gözlərimə, hardasan?
Gizlətdiyin gözlərini gəzirəm.

Kül ələnir yanıb-sönmüş ömürdən,
Dönmək olmur üzü dönmüş ömürdən,
Bəlkə gəldin ya xəbərlə, ya birdən;
Qulağımda səslərini gəzirəm.

Əzab dolu Aydan, Gündən keçirəm,
Bəzən yaxın, bəzən gendən keçirəm.
Harda oldu od içindən keçirəm,
Soyutduğun közlərini gəzirəm.

Səndə incik ürəyimlə barışıb,
Nisgilimlə, gileyimlə barışıb,
Mən öz qadın taleyimlə barışıb –
Qəlbimdəki sərsərini gəzirəm…

Ana

Adın göylər boyda, baxışın dərin,
Müqəddəs adına qurbanam, ana,
Şirin Layla çaldın, mənə beşikdə,
Qəlbini oduna qurbanam, ana.

Əzablı gündüzdən, soyuq gecədən,
Keçərək elədin telləri dən-dən,
Ömür yollarımı ıraqban edən
Sənintək qadına qurbanam, ana.

İllər qalandıqca illərin üstə,
Dənlər qalandıqca tellərin üstə,
Hər laylan bayat üstündə bəstə,
Sözünün dadına qurbanam, ana.

O ağ saçlarını üzə örtərək
Bir tikə çörəyi payladın tək-tək.
Nədən saçlarını ağartdı fələk,
Ağarmış saçına qurbanam, ana..

Ruhum bəxş olsa da, Ulu Tanrıdan-
Ömrümü pay verdin öz həyatından,
Ana, mən özüm də ana olandan,
Minqat qüdrətinə heyranam, ana…

Susqunluq

De kimdə görüm belə günahı,
Sönməyən köz idim axı, İlahi.
Elə bil yuxudur yaşadıqlarım,
Yoxsa, çin olubdur yuxu, İlahi.

Xəyal pəncərəmdən boylanıb indi,
Daha aldadıram özüm-özümü.
Alovum kimisə isindirirsə,
Yandırıb dağlayır közüm özümü.

Dünən qızılgüldüm, indi qərənfil,
Qızılgül toyda, qərənfil yasda.
Mənə xoşbəxtliyi gətirən kəsin,
Qolları qısadı, addımı asta.

Gəldi

Mənə yaşatdığın acılarınla
Daha necə deyim həyat gözəldi?
Sənlə gedərdim, axı, ölümə,
Getdin bir ayrılıq qapıya gəldi.

Dağlandı ürəyim çəkilib şişə,
Dərdlər çəkdirməyi elədin peşə,
Alovlu-alovlu kimlə görüşə
Getdin, bir ayrılıq qapıya gəldi.

Baxışın əriyib yağır gözümdən,
Gör nələr çəkirəm sənin üzündən,
Böyük, sevgimizin çıxıb sözündən-
Ağır bir ayrılıq qapıya gəldi.

Köçdü dünyadan

Elvira xanımın xatirəsinə

Nazlı, qəməliydi, sevgiylə dolu,
İnana bilmərəm doydu həyatdan,
Edib yaşamıyla "salam", "sağolu",
Bugen bir insan da köçdü dünyadan..

Ağıllı, zəkalı, sadəydi həm də,
Dostlarla birgəydi sevincddə, qəmdə,
Boğuldu taleyin, ömrün qəmində,
Bugün bir inam da köçdü dünyadan..

Çalınıb, çapılıb yarıldı dünya,
Bir ana qəlbinə dar oldu dünya,
Ala gözlərində qaraldı dünya,
Bugün bir inam da köçdü dünyadan..

Tanrım istəməzsə, əldən nə gələr

Xoşbəxtlik ölçülməz dövlətlə, varla,
Tanrım istəməzsə, əldən nə gələr?
Qapın da açılmaz doğma açarla –
Tanrım istəməzsə, əldən nə gələr?

"Sevirəm" sözünü demə, boşuna,
Məhəbbət görməsən gəlməz xoşuna.
Şəkər əvəzinə zəhər qatar aşına,
Tanrım istəməzsə, əldən nə gələr.

Bəzən uduzarsan vaxt oyununda,
Onun günahını daşı boynunda.
Çarəsiz, əllərin bağlı qoynunda,
Tanrım istəməzsə, əldən nə gələr.

Demə

İçim sığmır içimə,
Daha mənə- sağ demə.
İnanmaram heç kimə,
Yalanını ağ demə.

Dərd içinə can çöküb,
Araya hicran çöküb.
Düşündüm- duman çöküb,
Sinəmdəymiş dağ demə!

Mənə hayıf, yazıq – sən;
Başıma uçuq evsən,
İşdir bir daha sevsən –
Ayrılığı düşünmə…

Məni

Yad güldü, bəxtimin üzü gülmədi,
Göynətdi bu həsrət, intizar məni,
Hamının durnası vaxtında gəldi,
Yenə də, aldatdı ilk bahar məni.

İlmə-ilmə dərd toxundu ömrümə,
Göz yaşların çox yaxındı ömrümə,
Kim istdi, kim sığındı ömrümə -
Həsrətin eylədi yağış, qar məni.

Hər yerdə görürəm; beləmi çoxsan?
Sənlə döyünür, ürəyə baxsan,
Qoynuna qaçanda anladım yoxsan,
Yollarda ağlatdı xəyalın məni.

İçimə dünyanın qəmin yığmışam,
Kədərin yığmışam, dərdin yığmışam,
Əgər, sənin üçün heç vaxt yoxmuşam
Nə cür eləyərdin bəxtiyar məni?

Bir gün başdaşıma yazılsa, adım,
Denənki, "Dərdinə yanan olmadım"…
Gördün, nə halda sevdiyin qadın?!
Görəndə tanıdı necə kor məni…

Ürəyim ağrılı, hissim yaralı

Ömür badəsinə şərabı süzdüm,
Gerçək sevgiləri yan-yana düzdüm.
Əzablariçində hər axşam üzdüm-
Ürəyim ağrılı, hissim yaralı.

Sevgi əkdim həsrət bitdi yerində,
Ağrılar dil açdı şeirlərimdə,
Qaldım bu dünyanın zalım şərində,
Ürəyim ağrılı, hissim yaralı.

Məndən uzaqdasan gülməz ki, üzüm,
Min dərdi ödəməz, söhbətim, sözüm,
Getdiyin yollarda qalıb əzizim,
Ürəyim ağrılı, hissi yaralı.

Qismət deyib hər gün çəkdik,
Ümid yuvarlandı dibsiz dərəyə,
Bir qismət yazılıb axı hərəyə,
Ürəyim ağrılı, hissim yaralı..

Haçandı bəxtimin günəşi batıb

Həsrətəm üzündə nurlu sabahın,
Həyat min kədəri gözümə qatıb,
Haçandı ürəyim gülmür , İlahi,
Haçandı bəxtimin Günəşi batıb.

Düşə bilməmişəm hələ qatardan,
Uzağam.. uzağam eşq adlı vardan,
Üşüdüm yağışdan, tufandan, qardan,
Haçandı bəxtimin günəşi batıb.

Dilimdə yaşayan sözüm yorulub,
Yolları çəkməkdən gözüm yorulub!
Taqətim tükənib, dizim yorulub,
Haçandı bəxtimin günəşi batıb.

Nə qədər içimdə göynəyim, ana?
Ağrılar olubdu örpəyim, ana!
Görəsən neyləyim, neyləyim, ana,
Haçandı bəxtimin günəşi batıb.

Dünya dağılmalı, Haqsa günahkar,
Lap belə Haqdan da çoxsa günahkar,
Görəsən nə üçün- yoxsa günahkar,
Haçandı bəxtimin günəşi batıb?..

Qızım

Qızım Nurşənə ərməğan olaraq..

Dünyaya göz açdın bir qış ayında,
Ağzımda, dilimdə şəkərim duzum,
Qışımı bahara dözndərdin onda,
Mənimçün dünyada hər şeysən qızım.

Doymaram min il də ətrini alam,
Sarışın, bəstəboy, balaca balam.
Sən mənim ən uca alınmaz qalam,
Mənimçün dünyada hər şeysən balam.

Gündüz günəşimsən, gecə ayımsan,
Aydan işıq alan şölə payımsan.
Sən mənim can evim, şah sarayımsan,
Mənimçün hərşeysən dünyada balam.

Hər gün duaçıyam o bir Allaha,
Çəkməsin bizləri kədərə, aha.
Nurşənli çöhrəndən nur saç sabaha,
Mənimçün hər şeysən dünyada qızım.

* * *

Qosqocaman göy üzü, qəhvəyi torpaq...
Bir ovuc insan,
Maraqlar,
İstəklər,
Axtarışlar,
Nəticələr-
1+1+1+1=0
Beləcə,
Səssiz-səssiz sığındığın dünyalar sıra-sıra
səngidəcəklər səni!

* * *

Nəfəs aldığın hər yerdə
havanı yağışlı hiss edirsənsə,
Qoca şəhərin ortasında
burnuna kənd qoxusu gəlirsə,
Gördüyün hər buludda cızdığın
xatirələr canlanırsa,
Deməli, hələ də, son deyil!

* * *

Qar-a bələnmiş qara...
Üzərinə düşmüş ayaq izi..
Bir də, duyğuları buz tutmuş, iki ayaqlı varlıqlar...
Q+a+r+a=inSan

* * *

Gecikdirmək həyatın dadını qaçırdır-
Əsəbləşmisənsə, qışqqır,
Sevinmisənsə, gülümsə,
Darixmisansa, vaxt itirmədən axtar!

* * *

Ondan uzaqlarda uzanar günlər,
Qəlbin həsrət, gözlər həsrət, yol həsrət..

* * *

Bir qadın gedəndə bir çox adam gedər bu həyatdan, dayanmadan..
Ana.
Ev xanımı.
İş adamı.
Uşaqların tərbiəçisi.
Gələcək təməl qurucumuz!
Təbii bir gözəllik..
Həyat müəlliməmiz!

* * *

Uşaqlıqdan qocalanadək həyatımızın uzun bir hissəsində-
bir əşyayı bir yerdən digər yerə daşımaq,
sağlıqlı yaşamaq,
sevdiklərimizə qovuşmaq üçün
"Yerimək" deyilən bir işi gerçəkləşdirərik!

Vivaldi..

Alayarımçıq yuxu simfoniyası..
Saatın əqrəbi çıqqıldayır...
Saniyələr hər an səni atır bir addım
ölümün qabağına yem kimi-
Bir, iki, üç..
Hər an cənnət və ya cəhənnəm qapısını
döyməyə bir addım da yaxınsan..
Elə, ürəyində saatdsan geri qalmır-
Dəqiqədə 70 addım səni atır qabağa,
Sanki, yarışa girib öz yaşıdlarıyla..
Hər aldığım nəfəsdə sənə yaxınlaşıram-
Lap elə fırtına öncəsi səssizlik kimi-
Ölüm!

Tu bi or not tu bi?!

Qaçırdı-
Xəyallarında..
Deyirlər, xəyallar gələcəyə bir yol açar!
Axı, necə?!
Elə, xəyalında da, yuxarı bir divar, aşağı bir divar, sağ qaranlıq, sol sükut- ikisi də divar..
Lap nərd oyunundakı zərə bənzəyirdi..
Hara tullansaydı da, elə dörd üzündən biri üstdə düşəcəkdi..
Zərin yenə hər üzündə bir üzü var,
Axı onda bu da yox idi!
Elə, hər düşdükcə,
Ağlına bu gəlirdi-
Şekspir demişkən: To bi or not tu bi?!
(Olmaq və ya olmamaq?!)

Ata!

Qalx ayağa, çıx qaranlıq otaqdan,
Görün günəşin gözünə,
Aç ona dünyanın qapılarını-
Demək asan idi, bunu inandırmaqsa, çətin!
Axı, məna maneası var idi!
Necə inandıra bilərdi ki, atasını?!
Gözlərində gizlətdiyi əslində, onun gerçək
üzüdür.
Elə qıvranırdı, tələtümə düşürdü
düşüncələrində..
İnqilab olurdu, hər dəfə sən niyə susursan
özlüyündə deyəndə..
O isə, görmək istədiyini səsləyirdi-
Ömrün qədəhinə acı həqiqətlər dolduqca-
Oğlunun üzü gülə-gülə gözləri ağrayırdı..

* * *

Ömrün səhifələri qaradır, ağdır,
Həyat əkin yeri, ömür bulağdır.
Arzudan arzuya gör nələr yağdı,
Bu yağış ruhumu islatdı mənim!

* * *

Gecələr həyatın canı darıxar,
Urək duyğulanar, gözlər doluxar.
Keçər ürəyindən xatirə seli,
Bəlkə də, hardasa sevgi karıxar

Bəlkə, heç böyüməyək...

Həmişə uşaq qalaq,
Bəlkə, heç böyüməyək.
Dünyanın hələ də, iki leyləyin qanadları
üzərində olduğunu düşünək..
Bir-birimizin yanında boy sırasında dayanaq..
(Vəzifəlilər bölgüsü olmadan!)
Atalarının uşaqlıqdan şahzadəsi olan bütün
qızlar hamısı xanım olsun,
O, xanımlar hər biri onlarla milyon saxta üzlə
qarşılaşmadan gəlin olsun...
Onlar isə özgə əsarətində qalmaya və hər bir
gəlincik dönüb ana olsun..
Və.. Və..
Analar övladları varlı, kasıb deyə siniflərə
ayırmasın..

Sonra o analar dönüb nənə olsun-
hər kəsə, hətda nəvələrə eyni gözdə baxsın..
Bəlkə, heç kəs böyüməyək...
Eləcə, düşündüyümüz tək bir şey dərslərimiz
olsun-
Səhər tezdən oyanıb məktəbdə vaxtında
olmaq,
Həftə başa çatmamış –
Qucağımıza dərd yığmaq əvəzinə -
gündəliyə çoxlu “5” yığaq..
Hər xarakter bir səs çıxarmasın..!
Bir qiymət verənimiz olsun - Müəllim!
Daha həyatın sınağından çıxaçıxda, yaxşı
çıxmadıq deyə daşqalaq olunmadan-
Eşitdiyimiz hər danlağın ağrıları uşaqkən
olduğu kimi bir gecəlik yuxumuzda “ağrıları”
ərisə..
Etdiyimiz səhvlərin hesabatın verəsi olmayaq..
Düşək..
Yıxılaq..
Ağlayaq..

Analarımız qanayan dizlərimizə deyinə-
deyinə, öpə-öpə məlhəm qoysun..
Məhlələrdə yalnız “7 şüşə”, “qızılquş”
oynanılsın..
Məhlənin torpaqlarına yalnız “təbaşirlə”
sərhədlər cızılsın..
Daha, ölkələrdə olduğu kimi torpaq davası
olmasın..!
Bəlkə, bəlkə, heç böyüməyək!..

* * *

Tənhalığın insanlar ikən doluykən, rahat nəfəs
almağa belə, sağlam mühit tapmazsan!
Kim bilir, harda kimi insanlar çıxar, zəhərləyər
bu həyatın təmiz qalmış küçələrini belə..
Bəs bugün,
Bəs dünən,
Bəs sabah?!
Hər şey gözəl olacaq deyə bilmərəm, amma-
Ağlının səsinə qulaq ver!
O səni sükutda daim saxlasa da,
Rahat gələcəyə aparacaq..
O gələcəkdə insanlar ilə dolu yalnızlıqlar olsa
da, ən azı onların içində vicdan rahatlğın səni
yalnız buraxmayacaq!

* * *

(Dənizdə şəhid olan Neftçilərimizin
əziz xatirəsinə)

Fırtına!
Dəniz!
Od!
Ağrı!
Əzab!
Ömür qatarından xatirələr axını..
Həyat gözünün önündə suda yanır..
Ölüm sükutu!..

Gözlərin..

Dünəni bugünə, bugünü sabaha, sabahı
gələcəyə bağlayan ümidlər körpüsü..
Qaçır ürəyindən doğma adamlar-
Darıxarsan..
Bir an keçər gözlərin önündən
Videoçarx kimi,
Canlı tutarsan xatirələri,
Üşüsən gözlərini yumarsan,
O üşüməsin deyə..
İsti gülümsəmə,
Gərgin baxışlar,
Bütün ağlını alar..
Darıxar ..
Darıxar..
Səhər açılar-
Adamlar sağa-sola sayrışarlar..
Amma,
Sən hələ də, o gözlərinə gələcək deyə yolunu
gözləyərsən...

Xoşbəxtlik

Xoşbəxtlik!
Deyirlər, sən mənim olaydın.
Həyatımı səninlə bəzəyər, dünyamıza yol alardıq.
Dünən səndən, bugün məndən qol-qola asılardıq..
Diz-dizə oturub hər gün eyni süfrə başında yeməkdə,
Göz-gözə dayanıb hər gözəl musiqidə, rəqsdə,
Əl-ələ gəzib hər dəfə yağış damlalarında birgə islanardıq
Amma mən bir varlığam, sənsə an!
O ansanki, səndən tutunuram növbəti ana qalxmaq üçün..
Bəzən, ümidlənərək tutunduğum o an boşluğa düşürəm..
Çünki sənə çatmaq sənin üçün qırılan könüllərdən keçir..

* * *

Tarixi gecikən sevgilər..
Əslində, olmadı!
Bəlkə də heç yaşanılmadı!
Bəlkə də, oldu!
Bəlkə də, oldu-
gəldi, göründü, əbədiyyətə qovuşdu!

* * *

Son beş gün!
Noyabr ayı da, beləcə bitmək üzrədir..
Soyuq müharibələr ilə dolu keşməkeşli bir ay oldu, nəticə yox!
Sadəcə soyuq qarışıqlar silsiləsi!
Noyabr, yaxşı sonlan ki, yaxşı xatırlanasan..
Və unutma- bir də, bu yaşında olmayacaqsan- Noyabr!

Ümid

Ağır idi həyatı,
Gülürdü..!
Hər şey möhtəşəm görünürdü,
Olduğu yeri öz işığına bələyirdi,
Hərdən gözlərində alaqaranlıq sükut!
Çağırırdı harayına-
Onu ayaqda tutan ümidləri,
Hələ də, ayaqda idi,
İpək kimi zərif olsa da, qorxmurdu
çiyinlərindəki ağırlıqdan..
Ürəyində inam, ümid və buna aparan
məqsədli yol var idi..
Sabah-
Günəş bir daha yenidən doğacaq, deyə...

Fikir qayıqları

Fikirlərim darmadağın, cismim
geyimdə,
Düşüncələr ayaqyalın, ağlım çaşbaş,
hətta sarmaş-dolaş..
Üzümdə saxta gülüş,
Gözümdə narahat həyəcan,
İçimdə bomboş xəyalların məzarlığa
çevrilmiş gömüntüləri..
Gözləmədiyim anda, düşünmədiyim
zamanda çıxdın qarşıma,
Sənin ilk gəlişin, ilk rahatlıq bəxş
edən gülüşün,
Səmimi davranışın, asta, sakin
baxışın-
Bəzən də olsa, toqquşurdu baxışlar,
Bir an, bir saniyə, bir dəqiqə, bəlkə
də anların çərçivəsində..
Bəlkə də, adi baxış deyildi,
Bu sənin mənə gəlmən idi,

Gözlərimə, ruhuma tam ruhunla
çökmən idi..
Bəzən olur da, azıram baxışlarında
sayrışan ulduzlar kimi,
Bəzən olur da, gəzirəm aşiqlər kimi..
Həzin bir musiqi duyğulara çökür..
Səssizlik ruhumu didib cismimi
sökür..
Silkələnir duyğular,
Asta-asta, narın-narın yağır bir qış
yağışı kimi.
Yellənir fikir qayıqları,
Titrədir sənli həyatda sənsiz
yaşamanın qayğıları.

Dənizin sərin mehi çırpıldıqca
üzümə,
Baxışların kölgəsi iz salıbdı gözümə..
Həzin, sakin gözlərin,
Ruhuma qida verir,
Qatmaqarışıq dünyada səni məndən
dindirir..

Gözlərimiz baxdıqca toqquşur o
baxışlar,
Məni məndən qoparıb istiləşir
baxışlar.
Nə olar ki, baxmasan belə diqqətlə
mənə,
O həsrətin o anda çökür ürkək
qəlbimə.
Süzülüb gözlərindən gözümə yollar
axır,
O məsum gözlərindən mənə bir
həsrət baxır.
Dinlənirəm elə bil bu qayğılı
dünyada,
O durğun, saf baxışı vermərəm heç
bir yada,
Ağrayır bəzən ürək, sənli seygah
dünyada,
Həsrətim həsrətini verməz heç zaman
bada.
Bəlkə də, bu bir qismət,

Bəlkə də, bu bir nemət,
Bəlkə də, bu bir zinət,
Bəxş eləmiş Yaradan,
Səni mənə çoxdandan.
Darıxıram darıxmağını,
Darıxıram sayğını,
Darıxıram qayğını,
Darıxıram həsrət yağışını..
Qınayıram sənli dünyanın sənsiz
qarğışını.
Təsadüfə inanırsanmı sən?!
Bu bir təsadüfmü yoxsa qeyri-
adilik?!
Yoxsa qaranlıqdakı işıq?!
Yoxsa mənli səni, sənli məni kəşf
etmək arzusu?!
Bəlkə də, yox!
Elə, bu bir yuxudur..
Hər gecə əlimi Yaradana bu gecə,
səssizcə rahatlıq ver deiyimçün
gördüyüm bir yuxudu?!
Bəlkə də, yox!

Sevgi dolu sevgililər görəndə,
O gözlərdə yanan atəşi arzulamaq
arzusudur..
Bəzən düşünürəm, sussun cümlə-
cahan,
Dayansın sürətlə qaçan zaman,
Danışmasın göylər
Yağdırmasın yağışı,
Yağsın gözlərin baxışı,
Çaxmasın ildırımlar,
Toqquşsun həyəcan, tələşlı, ehtişamlı
istək dolu həsrət baxışları.
Arzular, istəklər heç bitməz ki,
Sənli dünyanın sənsizlik harmoniyası
heç dinməzki..
Düşünürəm, bu bir həsrət baxışıtək
olacaq və qalacaq..
Bəlkə də, bu bir xəyal dünyasından
gerçək həyat röyasına dönəcək..
Əbədiyyən?!
Yox!

Əbədi nə var ki, həyatda?
Bu zalım həyatda..
Onsuzda hər şey bir gün gəlib, bir gün də, gedir..
Nə olar gedəndə, məni də, apar,
Qoyma, gözlərim duyğularının gözüylə duymaq istəmədiyim yanlışları duysun..
Apar məni də, apar sənsizlikdən,
Nə olar ,
Apar məni də, apar səssizlikdən,
Apar sənin səssizliyinə..
Apar məni də, apar səssizlikdən,
Apar sənin səssizliyinə..

Hardasan

Eşqimi ömrünə yol eylədim,
Cismimi sənə qul eylədim.
Göz yaşın yoluna sel eylədim,
Hardasan, yarım hardasan?

Baş üstündə karvan duman,
Həsrət ağlar sənsiz yaman.
Mələyim getdin, durdu zaman,
Hardasan, yarım hardasan?

Getdin, öyrəşdim, qışlara,
Bəxtimi vurmuşam daşlara.
Bənzədim, köçəri quşlara,
Məhəbbət çırağım hardasan?

Məni tapşırıb bəxtimə,
Sahib çıxmadın əhdinə.
Hər gün baxıram rəsminə,
Hardasan yarım hardasan?

Həyatın əlində naçaram,
Cəfakeş taleyə düçaram.
Çağırsan yanına qaçaram,
Hardasan yarım hardasan?

Ülkər

(Fəxrəddin Meydanlı)

"Ağakişibəyli"də, göz açmışam mən,
"Şərəfə" kəndində söz açmışam mən.
"Dəfinə" qapısın, düz açmışam mən-
Oxuyub-yazmışam mən gündüz, gecə,
"Qırıq xəyallar"a mən dözüm, necə?

Böyüdüm, öyrəndim özgə dilləri,
Şerimlə fəth etdim, çox könülləri.
Dolandım qırğızdan bəri elləri-
Vermədim ömrümdə bir günü becə,
"Qırıq xəyallar"a mən dözüm, necə?

Gənc ikən könlümü verdim yarıma,
Təravət gətirdim xoş baharıma.
Nurşənim doğuldu, döndü barıma-
göz istər gözəli, gözəldən seçə,
“Qırıq xəyallar”a mən dözüm, necə?

Sevgimiz car olub, eşqimiz düçar,
“Sevdiyim”, “Həyat”da “Yoxsan”,
aşikar.
“Dünyamı günahkar, bizmi günahkar”?-
“Ürəyimə yağış yağır bu gecə”,
“Qırıq xəyallar”a mən dözüm, necə?

Gözümün önündə “Qocalır atam”
“Ana”m nə düşünür, çox narahatam.
Ay “Bəndə”, “Könül”mü, könlünə
qatam-
təki bu sevgimiz getməyə heçə,
“Qırıq xəyallar”a mən dözüm, necə?

Yaş üstə yaş gəlir, bu gün bir az da,
İşim dərindədi, yoxam dayazda.

Söndürməz odumu “Kür” də, “Araz” da-
Dəryalar salmasın qoy özün gücə,
“Qırıq xəyallar”a mən dözüm, necə?

Fəxrəddin Meydanlı gəlib təbrikə,
Könlümdə eşq adlı imarət tikə.
Neyləyim, bəlkə də girdim şərikə-
Şair də şairin sözündən keçər,
“Qırıq xəyallar”a mən dözüm, necə?

Qalmışam kədərin, qəmin içində

Qəribə olarmış qara gecələr,
Əriyər saçlarda dənin içində.
Nə bilim, gündüzlər yaşanar nələr,
Hələ mən kədərin, qəmin içində.

Bu həyat eləcə, yağışdı, qardı,
Ömrümün çəkilməz dərdləri vardı.
Sanki, yad gerçəkmiş, doğma yalandı,
Nə bilim, nə yatar kimin içində.

Zülmət gecələrim dərin bir quyu,
Onu doldurarmı gözümün suyu?
Uyuya bilirsən yanımda uyu,
Qalmışam kədərin, qəmin içində.

Hardadır gözümə nur səpən işıq,
Getmir, kipriyimdə zülmət dolaşıq.
Sən mənə, mən sənə nə yaraşardıq,
Qalmışam kədərin, qəmin içində.

Sönsəm də ulduz ol mənim yanımda,
Nə var, nə tapmısan bu hicranında?
Bir ocaq çatsan da, sevən canımda,
Qalmışam kədərin, qəmin içində.

Başım nələr çəkdi sənsiz bu çağda,
Nicat qucaqdamı yoxsa bıçaqda?
Əllərim qoynumda, tənha otaqda,
Qalmışam kədərin, qəmin içində.

Güclə yeriyəcək ürək yolları,
Qapı aramaqda bəxtin açarı.
Burdamı gözləyim sənli qatarı?
Qalmışam kədərin qəmin içində.

Yusifim

Bir az boya-buxuna gəl,
Aşiq olsun neçə gözəl...
Yaman dəcəlsən-dəcəl,
Toyun mubarek Yusifim.

Sen məhəbbət, sevgi dolu,
Keçirsən bir ömür yolu..
Bu toy sənə nəsib olub,
Toyun mübarək Yusifim.

Bir nursan yeriyən, qaçan,
Könlümüzdə quştək uçan...
Geleceye cığır açan,
Toyun mübarək Yusifim..

Evinizdə toy-düyündü,
Qəlbimiz sənlə döyündü..
Bu gün sənin şad günündü,
Toyun mübarək Yusifim.

Şəfa anan tacın sənin,
Budaq atan gücün sənin...
Ayşən, Aysun bacın sənin,
Toyun mübarək Yusifim.

Səhər oldu, axşam oldu,
Aylar dönüb bir tam oldu...
Beş yaşın da tamam oldu,
Toyun mübarek Yusifim.

Kirvən Hümbət handan-hana,
Deyir bəzəksən dövrana...
Yolsan Ağsudan Şirvana
Toyun mübarek Yusifim.

Sən İradə müəlliməyə,
Bir sevincsən yerdən göyə...
Sev özünü öyə-öyə,
Toyun mübarək Yusifim.

Beləcə xoş keçsin zaman,
Sıxılmasın səndəki can,
Üzün gülsün hər gün, hər an,
Toyun mübarək Yusifim.

Böyüyürsən hər ayında,
Candı səsin, harayın da...
Zirvə şadlıq sarayında,
Toyun mübarək Yusifim.

Layiq ol əsli-soyuna,
Ata, ana haq-sayına..
Yığışaq böyük toyuna,
Toyun mübarək Yusifim.

***

Duyğular buzlaşdı isti ömürdə,
Bir dəqiqən bir ilə dönər ömürdə..
Tanrıdan ərməğan olan ömürdə,
Özünü yüksək tut, qədrin bilinsin..!

Bəlkə də, hardasa gözlər darıxır,
Sevib sevilməkçün qalıb oyaq da..
Bəlkə də, hardasa bir ürək qorxur,
Hesabat verməkçün qalıb ayaqda!

Qırıq Xəyallar Arxasından

Xəyal quran insanlar..
Həyatı darmadağın və bəzən bütöv
və bəzən alt-üst gördülər..
Uzun bir zaman tunelini 1 dəqiqəyə
qət etdilər...
Xəyal quran insanlar.. Səni qura-qura
öz beyinlərinə müsbət enerjini
yüklədilər..
Sən istəsən də, istəməsən də sayəndə,
hər kəs xoşbəxtlik enerjisini pulsuz
yüklədilər beyinlərinə...
Sayəndə hələ də, səni qurub-tikənlər
uzun ömürlü və hətda əlçatmaz
yerlərdə yol aldılar özlərinə..
Sayəndə daha uğurlu insanlar oldular
onlar..
Yaxşı xoşbəxt xəyalım .
Bəs hardasan sən?!
Bir hüceyrə qədər yaxınımda..
Ta iç dünyamda..

Ruhumda..
Beynimin hər hüceyrə blokunda..
Səni olduqca, gözəl düşünür hər kəs,
Əslində sənin heç bir neqativ fonun
yoxdur..
Sənin yarandığın sahə pozitiv
enerjiylə dolu-dolu neqativ
təsirlərimi yox edər..
Sən istəsəndə, istəməsəndə, beynim
hər atmaq istədiyi bir addımda, sənin
sayəndə 10-larla addım öndə gedər..
Əslində hər şey zaman deyil..
Zaman həyat
Zaman su
Zaman sevgi
Zaman bir ömür
Sona gedən sonsuzluk
Zaman her şeyin dərmanı
Zaman çox dəyərli -
Deyərdim amma, sən varsan,
xəyalım..

Deməli, mən zamana qalib
gələcəyəm..
Hər an zaman zaman deyil..
Hətta qırılan xəyallarım..
Darıxma , Sizi zamanın əllərindən
alıram, alacağam..
Sizə səslənirəm, qırıq xəyallarım..
Bir yolunu tapıb da, dünya
adlandırdığım bu dairəvi, kələ-kötür
məcrada sizi azdığınız yoldan geri
qaytaracağam..
Qırıldınız deyə, sizdən üz döndərə
bilmərəm,
Sizlərə sahib çıxmaq və ovuclarımın
arasına almaq vaxtımdır..
Beləcə, ilk öncə ən çox qırılandan
başlayıram..
Ən ağırdan, ən ağrılıdan ən
yüngülünə doğru gedən yolda
etdiyim səyahətdir bu..

Düşünürəm ki, Xoşbəxtlik dediyin
uzaqbaşı, bir neçə dayanacaq o
tərəfdə məni gözləyir..
Bir neçə dayanacaq o tərəfdə də,
tənhalıq var amma..
Biraz diqqət...
Beləcə, qurduğum xəyallarım
qırdığım xəyallarımdan qat-qat çox
olacaq..

Əslində.. Mən inadkaram.. birazda..
Hətda daha ötəsi..
Qırdığım xəyalları toplayıb bərpa edə
biləcək qədər inadkar..
Hətda deyə bilərsən..
Qırılmış hər şey öz izini saxlayacaq
özündə..
Amma, nə olsunki,
Adi bir su dolu stəkan qırılarkən, heç
su içməkdən əl çəkdimmi?!
YOX!

Deməli, sənin qırıqlarına sahib
çıxmaq mənim haqqımdır..
Bilirsiz?
Yorulmaram..
Ən azı, bunu düşünürəm, indi cansız
və qırıq xəyallarım axı vaxtilə,
mənim kimi nəfəs alan canlılar idi...

Yoxsan

Gözlərim hər yeri gəzib axtarır,
Cığırlarda yoxsan, yollarda yoxsan,
Güllər qönçə tutur, daşlar qabarır,
Şəbnəmlər gətirmir, kollarda yoxsan.

Səni xatırladan çiçəklər harda,
Bəlkə, tapdalanıb ayaqlar altda?
Dumanda, çiskində, günəşdə, qarda,
Nəğmələr gəzdirmir, dillərdə yoxsan.

Xəyal kipriklərdən asılı qalıb,
Əlim əlvidmda qısılıb qalıb.
Qismətin kimlərə yazılı qalıb;
Mənə bəxş olunan illərdə yoxsan.

Sənsiz ürəyimi kədər qırsa da,
Bəxtimə yazılan qədər yorsa da,
Məni həsrətlərdə dərd qovursa da,
Elə düşünmə ki, qəlbimdə yoxsan..

Gedərdim səninlə hara aparsan,
Sağalmaz yaramda kövrək qabarsan,
Bəlkə, durnalarla bir qatardasan,
Bir Ülkər kimi də, göylərdə
yoxsan…

O canlı!

Divarda asılı qalan böyük bir ayna,
Içində sonsuzluq..
Aynadakı ən gozəl qadın kim?
Onun içində özü boyda bir dünya,
Yollar saçlarindan uzun,
Ediləcək xeyli şeylər, az zaman
Xoşbəxt bir sifət,
Yaradan qarshisinda öhdəlikləri
Şokolad kimi görünən həyat
Bələdçisi yox
7 insanlıq günahı
Savasşa hazır olduğu güclər
Savasşdan sağ dönməsi gərəkməyən
anlar
Döyüşərkən xanım əfəndiliyini itirən
Öldüyündə manşetlərdə bu dünyanın
uşaqlarının liderini itirildiyi
yazilacaq ssenari populyarlıq!

Mən

Bəzən, daxilən duyduğun həqiqəti
düz ağlının görə bildiyi yerə qədər
dartıb gətirəndə, onları ittiham
etdiyini düşünər insanlar!
Beləcə, Səni acilamağa başlayarlar..
Həyatın bir küncündə içindən
yıxılmağa başlayarsan..
Amma onlarda ne Səni hiss edə
biləcək duyğu, nə də Səni ovuda
biləcək insan sevgisi olar!
Elə hey, fikir qayıqları dolaşib
çirpinar bir-birinə, o dibsiz acılı
sahillərdə..
Üzərinə uçuna-uçuna buludlanar
gözlerindəki sulu qar..
Qara-qara niyyətlənər daxilindəki
həyata baxışın..
Içində ömründən parça-parça
tikdiyin güvənc duyğuları səndən
sökülməyə başlayarlar..

Ətrafa qırıq-qırıq səpələnmiş ozumu
toplamağa başlayaram..
Amma daim içinden bir Sən qırılar..
Geriyə dön, qayıt dediyində küsüb
bir həyatlıq gedən mən!

Yalnızlıq simfoniyası..

Adı qədər ağır duyğu..
Bəlkə, səbəb, bəlkə elə nəticəsən..
Bəlkə, elə məndən mənə gedən
yolsan,
Bəlkə, elə axtardığım özümsən..
Bəlkə, yoxuş...
Bəlkə eniş..
Bəlkə, elə düz gedişsən..
Göylərə uzanan əllərimdə
üsyanımsan bəlkə də..

***

Bəlkə, elə unutmaqdır yalnızlıq..
Gecənin dibsiz qaranlığına
sığınmaqdır yalnızlıq..
Bəlkə, ruhumun böyüklüyüsən elə..
Əslində, nəsən kim bilir?!
Kimsən kim bilir?!

Bütün xatirələr yığışsa belə, sənin
öhdəndən gəlməyəcək qədər
güclüsən.
Bütün işgəncələr toplansa, belə, ən
güclü işgəncə sənsən!.

***

Mənimdəki səssizliyim
qəlbimdəki ürkəkliyim
həyatdakı tək ərkliyim
sənsən
mənim
Yalnızlıq...

Problem

Səni bəzən özüm boyda,
Səni bəzən bu dünyanın özü boyda ..
Səni bəzən bir iynənin gözü boyda
görürəm..
(Sapa dönmək istəyirəm!)
Beynimdə, işıqda, şərlə xeyir
qarışanda sağımdan soluma,
solumdan sağıma,
Eləcə də əksinə, asta-asta ve bəzən
də sürətlə diyirlənirsən..
Içinə düşən çıxa bilmir,
Qarşına çıxan qaça bilmir..
Elə bil, qara kölgə kimi izləyirsən
adamı..
Mən yeridikcə gəlirsən..
Dayananda duruxursan.
Sağa dönürəm arxamda gizlənirsən -
sağ küncümdə,
Sola dönürəm, arxamda gizlənirsən -
sol küncümdə..

Qarşıya baxıram başıma çıxırsan,
Arxaya dönürəm ayaqlarım altına
sığınarsan..
De görüm, nədir alıb verə
bilmədiyin..
Bir canmi?
Bir admı?
Bir yarmı?
Biri varmı?
Ehh.. Ne çox oldu, ele hey,
müəmmalı sualların sayı..

Müəllim !

Bu sözün qarşısında baş əyirəm !
Zənnimcə, dünyada ən böyük
xoşbəxtlik uşaqlıqdan qarşına yaxşı
bir müəllimin çıxmasıdır..
Müəllim ! Yeni ruhları yaradan,
gələcəyimizin təməl daşını qoyan
qurucu !
Müəlim ! Gələcəyimizi qurtaran ordu !

Gecənin rəngi

Mənim otağımda gündüzün rənginə
bənzəyir gecənin rəngi..
Çox qorxuludur..
Bir yandan saat əqrəbinin çıqqıltısı,
bir yandan natamam insanlarin ayaq
tappıltısı..
Gözləri gözlərinin içinədək zillənmiş
qaranlıq baxışlar.
Çox hürküdücüdür. Nə bir baxışda
güvən, nə bir baxışda səmimiyyət, nə
də bir baxışda toxluq görürsən..
Əlləri körpələrinin əlləri əvəzində
telefonlarla üzləşən insanlar..
Dünənini bugünə kredit verən
sabahlar gəlir məsələn..
Buz bağlamış vicdanlarda əriyən

günəşlər var, məsələn..
Xatirələr dalğasında boğulan həyat
hekayələri var haralardasa..
Bəlkə də, bu həyatda bir artıq
insanam, ya da biri əksik yanımda..

Qadın

Qadın bir udumluq su, gözəllik..
Qadın nəfəslə nəfs arasındakı
həyatdır...
Qadın anlayışdır..
Qadın səadətdir..
Qadın fəxarətdir..
Qadın ədalətdir..
Qadın bir udumluq həyat, gözəlllik..
Qadın Yaradanla yaranan arasındakı
şərbətdir..
Qadın məhəbbətdir..
Qadın hörmətdir..
Qadın bir udumluq eşq, gözəllik..
Qadın ümid ağacı..
Qadın Ana..
Qadın sizlərə əmanət edilən Cənnətin
Tacı!

Bir ovuc ümid

Ümidləri ovuc - ovuc yığıb ürəyimə
yollanmaq istəyirəm bu dünyadan..
Hər şey onsuzda aramsız dəyişir...
Nə zaman,
Nə insan qalır olduğu kimi...
Kölgələnir, kölgələnir, kirlenir,
kirayələnir, kimliksiz, kimsəsiz,
kiçicik bir dairəyə salınır...
Özü özünü aldadırsan ele bil...
Elə bil?!
Yox, əsla!
Sən dünən geyindiyin xeyalları
aladırsan bəlkə də...
Yığıb ümidlərimi üreyimə getmək
istəyirəm bu şəhərdən...
Onsuzda gedecek özü bir gün...
Belkə gedən özüm olum?
Gedəndə də izim qalsın,
Arxamca iki gözün qalsın.

* * *

- Əksəriyyət gec-tez özünə yaraşanı, özünə layiqlini, özünə bərabəri tapa bilir məncə.. Nə xoş həyatda öz yerini tapan insana!

- Səhərin ilk işığından gecənin son ulduzunadək həmişə sevgi akkordlarıyla vurar ürəyin - o səni düşünəndə..

- Hərdən özünlə baş-başa qalmaq düzgün qərarlar qəbul etməyinə kömək edər.

- Unutmaq Azadlıqdır !

- Sizə narahatlıq verən hər xatirəni unudun getsin!
- Uğurlu qadınlar hər zaman mükəmməli gözləməzlər.
- Uğurlu qadınlar mövcud qüsurları ilə özlərini əzməzlər!
- Mən bacara bilmərəm demə, çünki hər şey 50/50 dir bu həyatda.
- Kiminsə gözü ilə özünə baxma, özünün bacardığına özün inanmalısan. Bu qədər sadədir, əslində, hər şey..
- Hər şeyin açarı hazırlıqdır, bu həyatda!
- Üzərinə xeyir-dua örtməyən üşüyər!

- Ana ürəyi- qanayarsa, kəskin qılınc yarası qədər həyatını ağradar, Çəkər səni bu dünyayla yüklənmiş o dünyanın ən ağır və ən ağrılı imtahanına.
- İnamını itirmə, ölərsən!
- Həsəd arzulara çatacaq yoldur!
- Göz yaşları axdıqca, sən də azalarsan!
- Ruhları və zehnləri doymuş övladlar ömür yolumuzda çırağımızdır!
- Sevgisizlik hüceyrələri öldürər..
- Dostluq fürsət yox, cavabdehlikdir.
- Hər bir kişinin ən böyük qələbəsi həyatın inadına inad öz ailəsiylə xoşbəxt ailə tablosuyla bir süfrə başında olmasıdır.
- Ən dəhşətli virus qəzəbdir!

- Dünya yaxşı insanların səssizliyindən əzaba bulanıb.

- Zehn hər şeydir, nə düşündünsə, o olursan!

KİTABDAKILAR

Xatirələr.....3
Bu aprel ayında.....6
Həyat.....8
Allahım sən alma bu gözəlliyi.....10
Oyan millətim, oya.....11
Ürəyimə yağış yağır bu gecə.....14
Tənhalaşdı ürəyim.....16
Tale istəməzsə, əldən nə gələr.....18
Vətən.....20
Bu vətən kök salıb ürəyimizdə.....22
Alışıb yanar.....24
Əgər ayrıldıysaq, necə barışaq.....26
Bəndə.....28
Döndü.....29
Anam.....30
Həyatmı günahkar, bizmi günahkar.....31
Qocalır Atam.....33
Qururum mənim.....35
Fikrimə gəldin.....37

Bəlkə tapam.....39
Ana.....41
Susqunluq.....43
Gəldi.....44
Köçdü dünyadan.....45
Tanrım istəməzsə, əldən nə gələr…….....46
Demə.....47
Məni …….....48
Ürəyim ağrılı, hissim yaralı…….....50
Haçandı bəxtimin günəşi batıb…….....51
Qızım…….....53
Qosqocaman göy üzü, qəhvəyi torpaq.....54
Nəfəs aldığın hər yerdə…….....54
Qar-a bələnmiş qara.....55
Gecikdirmək həyatın dadını qaçırdır.....55
Ondan uzaqlarda uzanar günlər.....….....55
Bir qadın gedəndə.....…….....56
Uşaqlıqdan qocalanadək…….....56
Vivaldi.…….....…57
Tu bi or not tu bi?!…….....58
Ata!…….....59
Ömrün səhifələri qaradır, ağdır.....60

Gecələr həyatın canı darıxar.....…...60
Bəlkə, heç böyüməyək.....….…61
Tənhalığın insanlar ikən doluykən.....64
Fırtına!.....…….....65
Gözlərin.....……...66
Xoşbəxtlik!.....67
Tarixi gecikən sevgilər.....……68
Son beş gün!.....……68
Ümid.....…….....69
Fikir qayıqları…….....70
Hardasan …….....….....76
Ülkər…….....78
Qalmışam kədərin, qəmin içində.....81
Yusifim…….....83
Duyğular buzlaşdı isti ömürdə….....86
Qırıq Xəyallar Arxasından.....……87
Yoxsan…….....92
O canlı!…….....…...94
Mən ……..….....95
Yalnızlıq simfoniyası.…….....97
Problem…….....99

Müəllim!.....101
Gecənin rəngi.....102
Qadın.....104
Bir ovuc ümid.....105

Ülkər PİRİYEVA

Fikir qayıqları

Çapa imzalanmış: 15.05.2017
Kağız formatı: 70x90 1/32
Həcmi: 7,5 ç.v.; Sifariş: 674; Sayı: 500.

«VEKTOR» BEYNƏLXALQ NƏŞRLƏR EVİ
Ünvan: AZ1018. Bakı şəh, Zığ yolu, 20 q
tel: (+99470) 3007000; (+99412) 4471404
faks: (+99412) 4796003
e-mail: isgenderzadeh@rambler.ru
www.vektor.az